# Gölə baxan kişi

**Draqo Yançar**

(Hekəyə)





***Bir yaz gününün ikindisində "Mercator" supermarketinin kassirlərindən biri süd məhsullarının satıldığı küncdə bir kişinin yüksək səslə deyindiyini gördü. Kassir çoxdandır burda işlədiyi üçün qəribə davranışlara öyrəncəliydi, buna görə əvvəl çox da fikir vermədi. Bəzən müştərilər həyat yoldaşlarının əllərinə dürtüşdürdükləri alış-veriş siyahılarını yüksək səslə oxuyub təkrarlayardılar. Yaxınlıqdakı parkdan siqaret və içki almaq üçün gələn bomjlar deyinə-deyinə günortadan sonra marketdəki rahatlığı pozardılar. Ancaq monoton səslə, dalbadal dediyi əlaqəsiz cümlələrlə, elə bil, kiməsə nəsə başa salmaq istəyən bu kişi bomja oxşamırdı; tünd göy kostyum geyinmiş, qalstuk da taxmışdı. Marketə girəndə mədəni şəkildə kassirlə salamlaşmışdı. Kassirin daha sonra xatırladığına görə, bircə sir-sifəti səliqəsiz imiş, görünür çoxdandır təraş olmamışdı və ondan az-maz da tər iyi gəlirdi, bir müddətdir orda-burda gəzən, köynəyini dəyişməyə vaxtı olmayan biri kimiydi. Fəqət bu eləcə bir adamın xarici görünüşü və ya səyahətdə olan birinin unutqanlığı da ola bilərdi. Bu kişi alış-veriş səbəti götürmədən birbaşa marketin arxa tərəfinə getmişdi. Bir müddət sonra kassir gördü ki, kişi həmin yerdə durub tavandakı nəyəsə baxa-baxa elə hey danışır. Kassir adətən o saatlarda gələn bir neçə yağlı müştərini yola salandan sonra danışan kişiylə bağlı xəbər vermək üçün direktorun otağına getdi. Otağın qapısını açanda, direktor əliylə uzaqlaşmağını işarə etdi.***

Direktor kassirin üzünə baxmadan belə dedi: "Bilirəm. Bayaqdan onu izləyirəm."

Masasında oturub davamlı şəkildə divardakı monitora baxırdı.

"Adam müşahidə kamerasına danışır" – dedi.

Soyuducunun düz üstünə quraşdırılmış və rəflərin arasındakı bütün sahəni çəkən müşahidə kamerası direktorun otağındakı ekranda kişinin üzünü geniş planda göstərir, onun həyəcanlı mimikalarına ağırlıq qazandırırdı.

"Qəribədir!" – dedi kassir, "Elə bil bir az başı qaçıb, amma yenə də çox normal görünür."

"Hayıf ki, səs gəlmir" – dedi direktor, "Gedim görüm nə danışır."

Əgər kassirlə direktor bir az diqqətlə baxsaydılar və kamera kişinin pərişan sifətini qəribə şəkildə uzatmasaydı, üç il bundan qabağa qədər hamının tanıdığı bu üzün sahibini – Xose Mlakarı tanıyardılar. Gecə xəbərlərində siyasətimizin getdiyi istiqamətlə bağlı danışar, seçki kampaniyaları ərəfəsində sağ və sol siyasi partiya liderlərinin politikalarındakı sapmaları şərh edər, baqqalların iş saatlarıyla bağlı dəyirmi masalarda iştirak edərdi. Bir dəfə bir tankın qabağında dayanıb ölkə müdafiəsinin silahlara yox, vətəndaşların vətənsevərliyinə söykəndiyindən danışmışdı. Başqa bir dəfə çayın üstündəki körpüdə dayanıb yükdaşıma qabiliyyətinin diqqətsizcəsinə hesablanmasından və keyfiyyətsiz inşaat materiallarından istifadəyə edildiyi üçün hamımızın təhlükədə olduğunu izah etmişdi. Amma ən ləzzətli və əyləndirici çıxışları insan haqlarıyla bağlıydı: Hər şeyin təməli insan haqlarıydı: o körpü tikintisində istifadə edilən materialların keyfiyyətindən, xarici siyasətdən və ya inkişaf strategiyalarından belə daha önəmliydi. Xose Mlakar nə vaxt kamera qarşısına keçsə, yaxud ona nə vaxt bir mikrofon uzatsalar, inandırıcı şəkildə deyərdi ki, ürəyində bir əxlaq prinsipi var: "Ürəyimdə bir əxlaq prinsipi və başımın üstündə göy qübbə!" Xose Mlakar insan haqları üçün hər şey etməyə hazır idi, insanları qurban etməyə belə, ən azından ölkəmizdəki insan haqlarının hər şey olduğunu bilməyən hissəsini.

Onun insan haqları və televiziya kanallarının orbitinə girməsi vətənimizin xilas edildiyi o şanlı qurtuluş günlərinə təsadüf etmişdi. İlk dəfə söz alanda hiss etdiyi həyəcanı (hər çıxışında təkrarladığı) heç vaxt unutmadı. O yaz axşamı, mikrofonlar yoxlanarkən, səhnənin qabağında dayanmışdı. İnsan selini gördü, ətrafdakı bütün küçələrdən axıb meydana gələn əzmli insan selini. Meydanda ilk işıqlar yanmağa, projektorlar gecəni dəlməyə və o şahanə səmada ulduzlar görünməyə başlamışdı. Birdən gördü ki, operator çiynindəki kamera ilə o tarixi hadisələrin vacib və o qədər vacib olmayan detallarını tutmağa çalışır. Yanındakı müxbir elə hey əlindəki mikrofonu insanların sifətinə yaxınlaşdırırdı. Evlərində divanlarına gömülmüş milyonlarla insanın nəfəslərini tuta-tuta baş verənləri izlədiyini düşünən Xose Mlakarda öz düşüncələrini eşitdirmək istəyi oyandı. Daha sonra dəfələrlə təkrar etdiyi kimi, bunu sırf ailə üzvləri və iş yoldaşlarının da içində olduğu milyonlara özünü göstərmək üçün yox, daha çox tarixin girdabına qəddarcasına qapıldığı üçün etmişdi. Özü də mikrofona nə deyəcəyini bilirdi, birbaşa kameraya baxaraq, "Heç vaxt təslim olmayacağıq!" deyəcəkdi. Əlinə fürsət keçsə, eynilə Çörçill kimi danışacaqdı – "Heç vaxt vaz keçməyəcəyik, dənizdə, quruda, kənddə, şəhərdə döyüşəcəyik!" Yaşadığı şəhər dəniz kənarında olmasa belə. Sonra sağdan, soldan dalğa-dalğa gələrək yığışan əhali onu mikrofondan da, kameradan da uzaqlaşdırdılar, beləcə, axırda çıxışların baş tutacağı səhnənin qabağında ilişib qaldı.

Səhnəyə necə çıxdığını xatırlamırdı. Sadəcə çantasını yerə qoymaq istəmədiyi üçün səhnəyə atdı, sonra özünü səhnədə tapdı, çantasını götürdü və ürəyi guppagupla döyünə-döyünə, amma qərarlı addımlarla çıxışçılardan birinin ona uzatdığı mikrofona tərəf irəlilədi. Sadəcə bir kameranın yox, bütün gözlərin, bütün işıqların və bütün kameraların onu izlədiyini gördü. Amma o baxışlarını sadəcə bir kameraya zillədi, düz yanında dayanan operatorun çiynindəki kameraya. Sonralar xatırladığına görə, balaca, bir az da çıxıntılı olan lensin – kameranın dərinliyi görünməyən gözünün, sözün bütün mənalarında cazibəsinə qapılmışdı. Onda milyonlarla gözün ekran qabağında olduğu ağlına gəlməmişdi. Amma necəsə, kameranın möcüzəvi tək gözünün içində milyonlarla başqa gözün olduğunu duymuşdu. Görmürdü, amma o lensin arxasındakı dərinliyə doğru çəkildiyini hiss etmişdi. "İnsan haqları ən başlıca və ən önəmli əxlaqi hüquqdur" – dedi; nə meqafonlardan öz səsini eşidirdi, nə də insan izdihamının alqışlarını; amma bir neçə insanın səhnəyə çıxmaqda olduğunu hiss etdi və bütün dünyada başa düşüləcək bir neçə söz söyləmək istədiyini, bu sözləri ingiliscə deyəcəyini xəbər verdi. Gözucu mühafizəçilərin səhnənin o başından tələsik ona tərəf gəlməkdə olduğunu gördü, qəfildən mümkün qədər anlaşılan dillə mikrofona tərəf "We shall never surrender; we will never give up because this has to do with our rights!"[1] – dedi. Bu sözlərini səsi min dəfə gücləndirən meqafonlar vasitəsilə söyləmişdi. Bir şey daha əlavə etmək istədiyini söylədi və "We will fight on the streets and in the fields!"[2] deyərkən yanında bir nəfər bitdi, "Zəhmət olmasa aşağı düşün" – dedi. Başqalarının onu səhnədən aşağı sürükləməsinə icazə vermədi, sanki vəzifəsini yerinə yetirmiş kimi, əlində çantasıyla, sakit şəkildə aşağı düşdü, fəqət səhnədən çox ayrılmadı. Özünü onu təbrik edənlərin arasında görəndə başı azmaz gicəllənirdi. Bir telefon köşkünə tərəf getdi, bir jeton atdı və nömrəni yığdı. Bir dəqiqə sonra dəstəkdən arvadının səsini gəldi.

***"Məni gördün!" – deyə qışqırdı musiqinin və izdihamın gurultusunda səsini eşitdirmək üçün.***

***"Nə dediyimi eşitdin?"***

***"Dəli olmusan?" – dedi arvadı tələsik.***

***Elə bil, arvadı ağlayırdı. Ona nə olub görən? – deyə fikirləşdi. Niyə ağlayır ki?***

***"Nolub sənə?" – deyə soruşdu, ona elə gəlirdi ki, nəsə yanlış anlaşılma var.***

***"Başın qaçıb sənin. Gicbəsər!" – dedi hönkürən həyat yoldaşı. "Evə qayıtma!"***

Bunun nə demək olduğunu başa düşməmişdi və həmin gecə şəxsi həyatında nələr baş verdiyiylə bağlı heç kimə heç nə demədi. Dəstəyi yerinə asdı, bir müddət telefon köşkünün içində dayandı, başı gicəlləndiyi üçün tam şəkildə nə baş verdiyini anlaya bilmirdi. Sonra meydandan ayrıldı, köhnə şəhərin ara küçələrindən birində dostuyla işdən sonra tez-tez şərab içdikləri ucuz restorana getdi. Elə bil kimsə başından aşağı bir vedrə soyuq su boşaltmış, ya da başını çəkiclə döyəcləmişdi; milyonların eşitdiyi o qürurverici sözlərin ətrafa yayıldığı, amma digər tərəfdən arvadının dözülməz göz yaşlarının əks-səda verdiyi həmin başa.Təbii ki, evə qayıtma deyən arvadının, əslində, onu dəliliklə, ya da daha yüngül bir səbəb ittiham etdiyini bilirdi. Nə vaxt bir restorandan zəng vurub gecikəcəyini desə, arvadı nə vaxt "Evə qayıtma!" desə, başa düşürdü ki, kefi yoxdur. Amma bu dəfə həmin sözləri deməsi Xose Mlakara çox mübaliğəli gəldi. Ürəyi əsdi. Əgər iş belədirsə, evə getmərəm deyə düşündü. Restorana girəndə televizor açıq idi, bara tərəf getdi, qabağına üç qədəh şərab qoydu və yenə kimsə onu təriflədi: "Çox yaxşı danışdın." Birinci qədəhdən sonra evə getməmək düşüncəsi dəqiqləşdi. Son qədəhdən sonra, restoran bağlananda bu əminlik onu tərk etdi. Evə getmirsə, hara gedəcəkdi? Amma yaralı ruhu təslim olmayacaqdı. O necə evdir ki, onun dəli olduğunu düşünürlər? Sadəcə hamının ortaq xeyri, millətin yaxşılığı və insan haqları üçün bir iş görmüşdü. "Evə gəlmə" yerinə tərifə boğulmalıydı, amma ona elə davranmışdılar ki, elə bil, möhtəşəm bir toplantıya yox, mıxlamağa gedib.

Ağlına gəldi ki, işlədiyi dəniz nəqliyyatı şirkətinin əsas binasında yata bilər, binanın açarları hələ də əlində möhkəm tutduğu çantanın içindəydi. Gecə qarovulçusuna vacib bir işini olduğunu deyəcək, otağının qapısını bağlayıb divanda yatacaqdı. İstəyirdi ki, təkcə evə gəlməməsini istəyən arvadı yox, anası, hətta sızanaqlı oğlu belə narahat olsunlar. Onu hamamındakı keramikaları öz əlləriylə döşədiyi, şüşələrin çərçivəsini düzəldən xərrata kömək etdiyi, inanılmaz fedakarlıqla qənaət edərək tikdiyi evdən qovanlar onlar idi.

Dəniz nəqliyyatı şirkətinin əsas binasının olduğu şəhərin kənar məhəllərinə tərəf addımladı. Küçələrdən əl-ayaq çəkilmişdi, mitinqdən qayıdan axırıncı adamlar da evlərinə, sevdiklərinin yanına tələsirdilər. Sürətlə yerisə də, canından üşütmə keçdi. Yaz günü hava ılıq idi, şirkətə doğru gedərkən əynində nazik bir pencək vardı. Sonra birdən dayandı. Səhər iş yoldaşları onun divanda yatdığını görəndə nə fikirləşəcəkdilər? Düzünü demək lazımdırsa, çox da vecinə deyildi, bütün körpüləri yandırmışdı. Evi əlindən alınmışdı, lap iş yoldaşları da düşünsün ki, başı qaçıb, nolasıdı ki. Kəsəsi, heç kimə kameranın sehirli gözünün girdabına necə qapıldığından danışmaq istəmirdi.

Qatar stansiyasına getdi, bir taksi tutdu, sürücüyə dedi ki, onu paytaxtın yaxınlığındakı balaca bir qəsəbə otelinə aparsın. Hara gedəcəyini bilirdi, çünki vaxtilə sevgilisiylə ora gedərdilər. Sevgilisinin ailəsi qızlarını ciddi nəzarətdə saxlayırdılar, onu görməyini qadağan etmişdilər və subaylıqda qaldığı evin yerini tapmışdılar. O qız indiki arvadıydı, ona başının qaçdığını deyən, ən pisi isə evə gəlməməsini deyən arvadı. O vaxtlar birgə yaşadıqları evləri yox idi, amma indi getməkdə olduğu o balaca otel sığındıqları bir liman idi. Beynində nə qədər pulu olduğunu hesabladı, taksi və otel puluna çatardı, sabah isə, hə, sabah isə başqa bir gün idi; indi sadəcə nə etməlidirsə, onu edəcəkdi. Gizlənəcəkdi, otel katibindən xahiş edəcəkdi ki, heç kimə heç nə deməsin, bunun necə ediləcəyini bilirdi. Amma gizlənmək elə də asan deyildi. Taksi sürücüsü belə kim olduğunu anlamışdı.

"Sizi televizorda gördüm." – dedi.

"Hm, bəli," – dedi Xose Mlakar, "Ciddi bir şey deyil."

"Əlbəttə, əlbəttə," – dedi sürücü. "Əla danışdınız."

Otelə girən kimi Xose Mlakar o saat yatağa girdi. Çox yorğun idi, sürücünün nəzakəti, hətta heyranlığı sayəsində yuxuya gedə bildi, çünki narahatlığı bir az azalmışdı. Dan yeri ağaranda yarıoyaq şəkildə, gecə və gündüz arasında möhtəşəm bir girdaba girdiyini gördü, azman bir göz onu elə böyük bir qüvvəylə özünə çəkirdi ki, qorxdu. Sonra mini-bardan bir az şokolad yedi və təzədən yuxuya getdi. Günortadan sonraya qədər yatdı. Eyvanda cikkildəyən qara bir quşun səsinə oyandı.

***Saatına baxan kimi əndişələndi. Bu saata qədər gömrük, vergi və başqa şeylərlə bağlı bir yığın sənəd hazırlamalıydı; əsəbi kamaz sürücülərini yola çıxmaq üçün ofisin qabağında gözləyərkən, köməkçisini onları sakitləşdirməyə çalışarkən, müdirini telefonlara cavab verərkən təsəvvür etdi. Xose Mlakar siyasi bir şarlatan deyildi, o dövrdə beləlri çox idi. O, bir gün əvvəl böyük meydandakı etiraz mitinqində olanlardan kiminsə düşünə biləcəyi kimi, səhnəyə tullanıb nəzarətçilərlə əlbəyaxa olası adam da deyildi.***

**(ardı gələn sayımızda)**

**Tərcümə etdi:**
**Qismət Rüstəmov**